# Xocalı soyqırımı xarici KİV-də

**“İzvestiya” (Moskva), 13 mart 1992-ci il, mayor Leonid Kravets:** “Mən şəxsən təpədə yüzə yaxın meyit gördüm. Bir oğlanın başı yox idi. Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü”.

❖ ❖ ❖

**“Valer aktuel” jurnalı (Paris), 14 mart 1992-ci il:** “Bu “muxtar bölgə”də erməni silahlı dəstələri Yaxın Şərqdən çıxmışlarla birlikdə yeni texnologiyaya, o cümlədən vertolyotlara malikdirlər. ASALA-nın Suriya və Livanda hərbi düşərgələri və silah anbarları vardı. Ermənilər yüzdən artıq müsəlman kəndində qırğınlar törədərək Qarabağdakı azərbaycanlıları məhv etmişlər”.

❖ ❖ ❖

**Tomas QOLTZ:** “Döyüş vəziyyətində olan Dağlıq Qarabağ anklavının şərqində yerləşən bu şəhərin baş məscidinin xidmətçiləri dedilər ki, bu gün onlar ermənilərin çərşənbə günü işğal etdiyi anklavda yerləşən Azərbaycan şəhərindən gətirilmiş 17 nəfəri dəfn ediblər...”

❖ ❖ ❖

Anklavın paytaxtı Stepanakertin (Xankəndi) şimal-qərbində yerləşən və 6000 nəfər əhalisi olan Xocalı şəhərindən olan qaçqınlar hücum zamanı qadın və uşaqlar daxil olmaqla, 500 nəfərin öldürüldüyünü dedilər. Ağdam məscidinin axundu Səid Sadıqov bildirdi ki, Xocalı şəhərindən olan qaçqınlar çərşənbə günündən bəri məscidə 477 meyit gətiriblər...

***“Vaşinqton Post”, 28 fevral 1992-ci il***

❖ ❖ ❖

**Elen Vomak:** “...Ağdamdakı “Röyter”in müxbiri Elif Kaban məlumat vermişdir ki, çərşənbə qırğınından sonra azərilər onlarla insan dəfn edirdilər, hansılar ki, bu bölgənin ikinci böyük yaşayış mərkəzi olan Xocalı şəhərinin ermənilər tərəfindən işğalı zamanı öldürülmüşdü. Dəfndə iştirak edənlərdən biri jurnalistlərin üstünə qışqıraraq demişdir: “Dünya burada baş verənlərə göz yumur. Biz ölürük, siz isə baxırsız...”

***“Sandey Tayms”, 1 mart 1992-ci il***

❖ ❖ ❖

“...İşğalçılar qadın və uşaqları müdafiə edən əsgərləri və könüllüləri öldürmüşlər. Sonra onlar qorxudan əsən qaçqınlara atəş açmağa başlayıblar. Sağ qalanlardan bir neçəsi baş verənləri belə təsvir etdi: “Elə əsl qırğın belə başladı. Ermənilər dayanmadan atırdılar. Sonra onlar içəri daxil oldular, bıçaq və süngü ilə adamları doğramağa başladılar”. Bu, sağ qalan üç əsgərdən biri olan Azər Hacıyevin dedikləri idi...”

***“İndependent”, 29 fevral 1992-ci il***

❖ ❖ ❖

“Ağdama gələn oğlanlardan biri qulağını itirmişdi. Sağ qalanların dediyinə görə, daha 2000 adam, hansılar ki, ayrı qaçmışdı, hələ də tapılmayıb: bəlkə də onların çoxu soyuqdan, yaxud da aldıqları yaralardan ölüblər. Dünən gecə Ağdam meyitxanasına 479 meyit gətirildi və qəbiristanlıqda 29 nəfər dəfn olundu. Mənim gördüyüm və hələ dəfn olunmamış 7 cənazənin 2-si uşaq, 3-ü isə qadın idi. Onlardan birinin sinəsi aldığı güllə yarasından tamamilə dağılmışdı...”

***“Tayms”, 2 mart 1992-ci il***

Azərbaycan. - 2019.-26 fevral.- S.11.